# Bakıda Novruz bayramı münasibətilə ümumxalq şənliyi keçirilmişdir

## Azərbaycan Prezidenti İlham Əliyev şənlikdə iştirak etmişdir

(Əvvəli 1-ci səhifədə).

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, xanımı Mehriban Əliyeva və Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla xanım Əliyeva Novruz şənliklərində iştirak etmişlər.

Dövlət başçısı və xanımı əvvəlcə Qız qalasının qarşısındakı meydana gəldilər. Meydana toplaşmış şəhər sakinləri, paytaxtın qonaqları dövlət başçısını və xanımını hərarətlə qarşıladılar.

Milli geyimli qız Azərbaycan Prezidentinə bayram xonçası təqdim etdi.

İçərişəhərin qala divarları üstündə və meydanda qədim tariximizi xatırladan qılınc və qalxanlı döyüşçülər dayanmışdılar.

Dədə Qorqud xeyir-dua verərək, bahar bayramının xalqımıza ruzi-bərəkət gətirməsini arzuladı.

Milli geyimli uşaqlar meydanda rəqs edirdilər. İncəsənət ustalarının baharı, Azərbaycanı tərənnüm edən mahnıları ətrafa yayılır, bayram şənliyinin iştirakçılarında xoş ovqat doğururdu.

Prezident İlham Əliyev Novruz tonqalını alovlandırdı. Sonra dövlət başçısı, xanımı Mehriban Əliyeva və Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla xanım Əliyeva Dənizkənarı Milli Parka gəldilər. Şənliklər burada da davam etdirildi.

Azərbaycan Prezidenti İlham Əliyev bayram şənliyində nitq söylədi **(Prezidentin nitqi mərkəzi mətbuatın səhifələrində dərc olunmuşdur).**

### *QƏBƏLƏ RAYON İCRA HAKİMİYYƏTİ BAŞÇISININ 2013-cü İLİN APREL AYINDA YERLƏRDƏ KEÇİRƏCƏYİ QƏBULLARIN VƏ GÖRÜŞLƏRİN QRAFİKİ*

| Tədbirin keçiriləcəyi yaşayış məntəqəsinin adı (şəhər, qəsəbə, kənd) | Tarix | Görüşün keçiriləcəyi yer və vaxtı |
|---|---|---|
| Cığatelli kəndi | 02.04.2013 | Klub müəssisəsi, saat $11^{00}$ |
| Nohurqışlaq kəndi | 09.04.2013 | Klub müəssisəsi, saat $11^{00}$ |
| Böyük Pirəli kəndi | 16.04.2013 | Klub müəssisəsi, saat $11^{00}$ |
| Mamaylı kəndi | 23.04.2013 | Kənd məktəbi, saat $15^{00}$ |
| Xırxatala kəndi | 30.04.2013 | Kənd məktəbi, saat $15^{00}$ |

**Qəbula dəvət olunurlar:** təhsil, səhiyyə, mədəniyyət və turizm şöbələrinin, hüquq-mühafizə orqanlarının, əhalinin sosial müdafiəsi, məşğulluq, gigiyena və epidemiologiya mərkəzlərinin, dövlət sosial müdafiə fondunun, poçtamtın, telekommunikasiya qovşağının, elektrik şəbəkəsinin, yol istismar, baytarlıq, qaz istismar, torpaq və xəritəçəkmə, suvarma sistemləri, meşələrin bərpası və mühafizəsi idarələrinin rəhbərləri.

# Martın 31-də Azərbaycan Respublikasında yay vaxtına keçiləcəkdir

Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsindən AzərTAc-a bildirmişlər ki, Nazirlər Kabinetinin müvafiq qərarına əsasən, martın 31-də saat 4.00-da Azərbaycan Respublikası ərazisində əqrəblər 1 saat irəli çəkilməklə yay vaxtına keçiləcəkdir.

Nazirlər Kabinetinin "Azərbaycan Respublikası ərazisində yay vaxtının tətbiq edilməsi haqqında" 1997-ci il 17 mart qərarına əsasən, hər il mart ayının son bazar günü saat 4.00-da əqrəblərin bir saat qabağa çəkilməsi ilə yay vaxtına keçilir. Hər il oktyabrın son bazar günü isə saat 5.00-da əqrəblərin bir saat geri çəkilməsi ilə yay vaxtı ləğv edilir. Qərarın həyata keçirilməsinə nəzarəti Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsi həyata keçirir.

# Qəbələ: ümumrayon Novruz şənlikləri

Azərbaycanın əsilli, köklü diyarı Qəbələ torpağına bahar gəlib. Bu yerlərdə ulularımızdan bizə yadigar qalan, milli ruhumuzu və yaddaşımızı bütün zənginliyi ilə özündə əks etdirən Novruz — Bahar bayramı ta qədimdən qeyd edilir. İllərin sınağı təsdiqlədi ki, təbiətlə insan ruhunun oyandığı gün eyni vaxta təsadüf edildiyindən xalqımız həmişə bu mübarək məqamı, yəni Novruzu xüsusi məhəbbətlə, əsil bayram ovqatı ilə qarşılayıb. Xalqımız bu bayrama Novruz adını təsadüfi verməyib. Novruz xalqın həyata nikbinliklə baxmasının, təbiətin oyanışının, sevinməsinin bayramıdır. Qəbələdə Novruz bayramını necə keçirməyimizə gəlincə deyim ki, rayonun şəhər, qəsəbə və kəndlərində bu təntənə özünün milliliyini və uzunömürlüyünü həmişə göstərib.






Ənənəvi olaraq Qəbələnin bütün bölgələri Novruz bayramı günlərində yenə də öz təntənəli anlarını yaşadı.

Bu bayram münasibətilə martın 20-də ümumrayon şənliyi keçirilmişdir. Həmin gün Qafqazın incisi sayılan Qəbələdə hava da xoş idi. Qara zurna haray salır, çaparlar şəhər boyu dolaşır, insanları Novruz bayramına səsləyirdilər. Hər yandan mahnılar ucalır, şən gülüşlər eşidilir, adamlar dəstə-dəstə «Qafqaz» Sport otelin qarşısındakı meydana axışırdılar. Meydan yenə də izdihamlı idi. Güllü-çiçəkli meydanda xonçalar düzülmüşdü. Milli ənənələrimizi əks etdirən məişət lövhələri diqqəti cəlb edirdi. Bir tərəfdə də həvəskar rəssamların baharı vəsf edən şəkillərinin sərgisi. Gənc idmançılar, məktəbli oğlan və qızlar öz hünərlərini nümayiş etdirirdilər. Ətrafdakı binalar, küçələr al-əlvan plakatlarla bəzədilmişdi. Burada Novruzun rəmzi olan səmənilərin sayı-hesabı yox idi. Bolluğun, bərəkətin və xeyirxahlığın təcəssümü olan Novruz bayramı artıq dörd ildir ki, UNESKO tərəfindən beynəlxalq səviyyədə qeyd edilir. Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti, Milli Məclisin deputatı Mehriban Əliyevanın təşəbbüsü ilə 2009-cu ilin sentyabrında Novruz bayramı UNESKO-nun Qeyri-maddi mədəni irs siyahısına daxil edilmişdir. BMT-nin Baş Məclisi isə martın 21-ni «Beynəlxalq Novruz Günü» elan etmişdir.

Doğrudur, sovet hakimiyyəti illərində bizim bir çox milli dəyərlərimizə qarşı səlib yürüşü yeridildi. İnsanların dinindən, imanından, adət-ənənələrindən, milli mənsubluğundan məhrum edilməsi üçün baş alıb gedən qadağa və təzyiqlərin bir zərbəsi də təbii ki, Novruza dəydi. Acılı-ağrılı zamanın vahiməsinə baxmayaraq Novruz yaşadı. Rəsmi tədbirlərdə onun adını dəyişdirərək gah «Yaz bayramı», gah da «Bahar bayramı» kimi qeyd etdilər. 1969-cu ildə ümummilli lider Heydər Əliyev Azərbaycana rəhbər seçildi və Novruzu həyata qaytarmaq üçün qoyulmuş qadağalar aradan götürüldü.

Əsrlərin sınağından çıxmış Novruz bayramını artıq 22 ildir ki, dövlət səviyyəsində keçiririk və Novruz bütün bayramların sırasında əzəmətlə dayanır.

(Ardı 3-cü səhifədə).